

XX əsr Naxçıvan Rəssamlıq məktəbinin ən parlaq nümayəndələrindən biri Şəmil Murtuz oğlu Mustafayevdir. O, 1929-cu ildə Ordubad şəhərində dünyaya göz açmışdır. M.T.Sidqi adına orta məktəbi bitirəndən sonra o, 1946-cı ildə Əzim Əzimzadə adına Rəssamlıq məktəbinə daxil olmuşdur. 1951-ci ildə məktəbi bitirib təyinatla Gəncə şəhərinə göndərilmişdir. Sonralar o, əmək fəaliyyətini Naxçıvan MK-da davam etdirmişdir. Naxçıvan Dövlət Musiqili Dram Teatrında baş rəssam işlədiyi müddətdə 20-dən artıq səhnə quruluşları və tərtibat vermişdir.

# Naxçıvan motivləri

## Əməkdar rəssam Ş.Mustafayevin əsərləri əsasında

**Naxçıvanda rəssamlıq məktəbi olmadığından Ş.Mustafayev istedadlı gəncləri seçərək rəssamlıq, xalçaçılıq, qrafika və heykəltəraşlıq sahəsində onların Bakı, Tiflis və Moskvanın rəssamlıq məktəblərində təhsil almalarına nail olmuşdur.**

20 il müddətində davam edən bu fəaliyyət yetişmiş gənc rəssamlar qrupunun formalaşmasına gətirib çıxartmışdır ki, bunun əsasında 1970-ci ildə Naxçıvan MK-da rəssamlar təşkilatı yaranmışdır. O gündən başlayaraq on nəfər SSRİ və Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul olunmuş və Naxçıvan rəssamları müntəzəm olaraq İttifaq, respublika və fərdi sərgilərdə iştirak etməyə başlamışdırlar.

Böyük ictimai-tərbiyəvi məzmuna, emosional təsir qüvvəsinə, ifadə gözəlliyinə, milli koloritə malik olan, müasirlik ruhu ilə aşılanan əsərlər yaratmaq Naxçıvan rəssamlarını daim düşündürməkdədir. Bu sahədə görkəmli fırça ustası Şəmil Mustafayevin yaradıcılıq nailiyyətləri xüsusilə böyükdür. Ş.Mustafayev Azərbaycanın zəngin və rəngarəng həyatından götürülmüş qiymətli tematik şəkillər, portret və mənzərələr yaratmışdır.

Onun yaradıcılığında bütün janrlar - tematik şəkil, portret, mənzərə, natürmort və s. mü-

vəffəqiyyətlə inkişaf etmişdir. Rəssamın tematik şəkil janrı sahəsində qazandığı nailiyyətlər xüsusilə diqqətə layiqdir. Lirik, romantik, qəhrəmanlıq ruhunda yaradılmış tematik şəkillərdə müasir həyatın müxtəlif sahələri ilə əlaqədar olan əmək və məişət mövzuları, tarixi keçmişin şanlı səhifələri əks olunmuşdur.

Mənzərə və natürmort janrları üzrə də rəssam böyük nailiyyətlər əldə etmişdir. İndi bizdə mənzərə janrına laqeyd rəssam tapmaq çətindir. Məhz bunun sayəsində doğma təbiətin gözəlliklərini, şəhər və kəndlərin yeni simasını lirik və şairanə boyalarla əks etdirən maraqlı mənzərələr meydana çıxmışdır. Ş.Mustafayevin mənzərə əsərlərini məzmununa görə iki qrupa bölmək mümkündür. Bunlardan bir qismi şəhər və sənaye motivləri ilə əlaqədardır. İkinci qismə isə kənd təbiətinə həsr olunan lirik mənzərələr daxildir. Şəmil Mustafayev- təəssürat rəssamıdır.

O, təbiətin zəngin boyalarından, günün müxtəlif çağlarından, ilin fəsillərindən aldığı təəssüratı əsərlərində məharətlə verə bilmişdir. Onun "Cəmey məscidi", "Gülüstan türbəsi", "İmamzadə", "Culfa rayonunda Nəiminin qəbri", "Zorxana", "Sər şəhər", "Qarabağlar türbəsi", "İbni Hüseyn" mənzərələrində fərdi təəssüratdan doğan intim-lirik hislər, həyəcanlar həlledici rol oynayır. Bu hislər isə Vətən sevgisinin, onun tarixi abidələrinin mənzərə dilində ifadəsindən başqa bir şey deyil.

Rəssamı ilhama gətirən təbiət motivləri rəngarəngdir. O, səfalı dağ mənzərələrini, meyvə bağlarını, baharın gözəlliyini, payızın qızılı rənglərini ("Naxçıvanda payız") dönə-dönə tərənnüm etmişdir. Mavi, göy, yaşıl, çəhrayı, ağ rəng çalarlarında işlənmiş həmin mənzərələr tamaşaçıda intim hislər, həyəcan doğurur.

Koloritdən güclü emosional təsir vasitəsi kimi istifadə edən, əsərlərini ahəngdar və dekorativ rəng çalarlarında işləyən rəssam, öz kolorit məharətini mənzərə təsvirlərində nümayiş etdirmişdir. Doğma yurdu olan Naxçıvanın səfalı guşələrini fırçaya alan rəssam "Naxçıvanda payız", "Ordubad mənzərəsi", əfsanəvi Batabatın mənzərəsini əks etdirən "Mən yaşamaq istəyirəm" lövhələrinin dili ilə sevdiyi torpağının gözəlliyini tamaşaçıya çatdırmaq istəmişdir.

Kənd mövzusunu əks etdirən "Bulaq başında" əsəri xüsusilə yadda qalır. Rəssam iş gününü başa vurub bulaq başına yığışan qadınların surətini böyük səmimiyyətlə vermiş, əlvan libasların, səfalı təbiətin boyalarında xüsusi ahəng və gözəllik duya bilmişdir.

Rənglərdən məharətlə istifadə edən Ş.Mustafayev bir sıra natürmort müəllifi kimi tanınmışdır. Meyvələrin, çiçəklərin, qabların və musiqi alətlərinin təsviri vasitəsi ilə insanın varlığa münasibətini əks etdirən natürmort janrında Ş.Mustafayev həvəslə işləmişdir. Onun natürmort əsərləri Azərbaycan torpağının bərəkəti, meyvələrin, çiçəklərin gözəlliyi, təbiətin zəngin boyaları haqqında canlı təsəvvür yaradır. "Ordubad meyvələri", "Naxçıvan gülləri", "Oxu tar - oxu" adlı natürmortlarda rəssam mavi, göy, bənövşəyi, yasəməni, çəhrayı rənglərdən istifadə etmiş, soyuq və isti rəngləri bir-biri ilə qarışdırmışdır.

Ş.Mustafayev istedadlı portret ustası kimi də tanınır. O, görkəmli tarixi və ictimai şəxslərin, mədəniyyət xadimlərinin surətlərindən ibarət portret qalereyası yaratmışdır. Ş.Mustafayev öz qəhrəmanlarına bəslədiyi səmimiyyəti qabarıq şəkildə ifadə etmək üçün sadə və anlaşıqlı təsvir vasitələrinə müraciət etmişdir. Bu səmimiyyəti biz rəssamın "Milli geyimlər" silsiləsindən olan qızların portretlərində açıq-aydın görürük. Doğma xalqın adət-ənənələrini, rəngarəng libaslarını, incə naxışlarını ürəkdən sevən rəssam "Milli geyimlər" silsiləsindən olan qızların portretlərində yaratdığı obrazların ənənəvi aləmini fırçaya almışdır. "Kürdün gözəli" tablosundan bizə baxan qaraca qızın ifadəli baxışlarında gənc qıza xas olan sadəlövhlüyü və səmimiyyəti incə ştrixlərlə canlandırmışdır.

Rəssam öz portretlərini dərin düşünülmüş, mənalı kompozisiya üzərində qurmuş, insanın fərdi aləmini, bəzən də tərcümeyi-halını təhlil etməyə müvəffəq olmuşdur. Onun "Akademik Zərifə Əliyeva" portreti lirik planda çəkilmişdirsə, görkəmli dövlət xadimi "Prezilent H.Əliyev"in portreti psixoloji planda rəsm edilmişdir. H.Əliyevin portretində dünya şöhrətli, məşhur prezidentimizin mənəvi aləmi üçün səciyyəvi olan ümumiləşdirici keyfiyyətlər tapmaq mümkündür. Onun qürurlu baxışı çox ifadəlidir.

Ş.Mustafayevin əsərləri arasında dahi Şəhriyarın obrazı xüsusi yer tutur. Başını əli ilə tutub düşünən, xəyala dalan şairin üzü ciddi və kədərlidir. Bu ciddilik, təmkinlik dünyanın haqsızlıqlarına qarşı səsini ucaldan şairin dünyabaxışından, kədərindən doğur.

Tarixi şəxsiyyətlərin portretləri Ş.Mustafayevin ən yaxşı əsərləri sırasına daxildir. O, Əcəmi Əbubəkr, Şah İsmayıl Xətai, Bağır xan, Hacı Zeynalabdin Tağıyevin portretlərini çəkmişdir. Rəssam Səttar Bəhlulzadənin portreti Ş.Mustafayev yaradıcılığına xas olan novatorluğun ən bariz nümunəsidir. Emalatxanada oturub düşünən, dərin yaradıcılıq axtarışları aparan sənətkarın profili nə qədər mənalı, xəyala dalmış mavi gözləri nə qədər təbiidir. İntellektual qüvvəyə, dərin zəkaya, ilhamlı təbiətə malik olan bu surət çox aydın, lakonik üslubda rəsm edilmişdir.

Şəmil Mustafayevin H.Cavid, Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyev, Bəhruz Kəngərli kimi portretləri gözəl sənət əsəri kimi qiymətləndirilə bilər. "Dəstə kəndi", "Qızlar bulağı kompleksi", "Duylun kəndi", "Baba yurdu", "Bahar", "Duz karvanı" kimi yaddaqalan əsərləri ustalıqla çəkilmişdir.

Ş.Mustafayev həyata nikbin mövqedən yanaşmış, öz qəhrəmanlarının psixologiyası, aləmi, duyğuları ilə səslənən parlaq və nikbin boyalara əl atmış, əsərlərinin koloritini dekorativ və işıqlı rənglərin əlaqəsində qurmuşdur. O, hadisələrin cərəyan etdiyi mühiti, hava və işıq effektlərini inandırıcı verə bilmiş, günəşli palitraya meyl göstərmişdir. Buna görə də onun tablolarında parlaq günəş işıqları bərq vurur, işıq-kölgə təzadları əşyaların həcmiliyini nəzərə çarpdırır.

Bu cəhətlər rəssamın animalistik əsərlərində də nəzərə çarpır. Onun "Durna" silsiləsinə aid olan "Durna", "Vaşaq", "Ülvi məhəbbət - flaminqo" tablolarında işıq-kölgə təzadları, hava-işıq effektləri məharətlə verilmişdir.

Şəmil Mustafayevin yaradıcılığı Azərbaycan hökuməti tərəfindən layiqincə qiymətləndirilib. O, 1969-cu ildə Azərbaycan Maarif Nazirliyi tərəfindən "Azərbaycanın qabaqcıl maarif xadimi" adını almışdır. 1974-cü ildə Naxçıvan MR-ın Əməkdar İncəsənət Xadimi, 2003-cü ildə isə Azərbaycanın Əməkdar Rəssamı adına layiq görülmüşdür. Dəfələrlə respublikamızdan kənarda müxtəlif fərdi sərgilərlə çıxış edən rəssam Naxçıvanın tarixini, adət-ənələrini, mədəni irsini təbliğ etmiş, əsərləri böyük marağa səbəb olmuşdur.

**Rəssamın yaradıcılığı xaricdə də yüksək qiymət qazanmışdır. Belə ki, İran İslam Respublikasında, Urmiyada keçirilən sərgidə Ş.Mustafayev kiçik qızıl, Şiraz şəhərində isə böyük qızıl medala layiq görülmüşdür.**

● **Ülkər VEYSƏLLİ,**
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dissertantı*

## Ədəbiyyat

1. "Əzizim Vətən yaxşı" sərgisinin kataloqu - Bakı, 1984.
2. Naxçıvan Ensiklopediyası - Bakı: "Elm", 2000.
3. Rəfiyev C. Naxçıvan rəssamları bu gün // "Ədəbiyyat və incəsənət" qəz., 3 avqust, 1984.
4. İbrahimov Ə. Naxçıvan rəssamları // "Ədəbiyyat və incəsənət" qəz., 5 noyabr, 1982.

## РЕЗЮМЕ

Статья посвящена творчеству современного азербайджанского художника Ш.Мустафаева, творчество которого связано с его родным краем - Нахчываном и охватывает практически все жанры живописи - тематические картины, портрет, пейзаж, натюрморт. Анализируются наиболее яркие произведения художника, которые позволяют выявить творческий почерк, манеру исполнения, колористическое решение произведений.

Ключевые слова: Нахчыван, тематическая картина, портрет, пейзаж, натюрморт, оптимистические краски, цветовая гамма, персональная выставка, свето-теневая моделировка.

## SUMMARY

Article is devoted creativity of the modern Azerbaijan artist S.Mustafaev's which creativity is connected with its native land - Nakhchivan and covers almost all genres of painting - thematic pictures, a portrait, a landscape, a still-life. The brightest products of the artist which allow to reveal a hallmark, an execution manner, the coloristic decision of products are analyzed.

Keywords: Nakhchivan, a thematic picture, a portrait, a landscape, a still-life, optimistic paints, color scale, a personal exhibition, a light-shadow modeling.

**Təqdim etdi:** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının incəsənət tarixi kafedrası
**Elmi rəhbər:** sənətşüaslıq doktoru, professor Kübra Əliyeva